# Turistlərin İçərişəhər macəraları

## Gələnlər Bakını bəyənsələr də, insanlarımızın əsəbi olduğunu deyənlər də var

**Lalə MUSAQIZI**

**Novruz tətilinin son günü yolumuzu İçərişəhərdən saldıq. Havanın əvvəlki günlərə nisbətən soyuq olmasına baxmayaraq, hər addımda əcnəbilərlə qarşılaşdıq. İstədik ki, şəhərimiz, insanlarımız haqqında onların fikirlərini öyrənək, görək, kənardan necə görünürük.**

**Qeyd edək ki, gözümüzə daha çox Birləşmiş Ərəb Əmirlikləri və İran vətəndaşları dəyirdi. Amma avropalılar da az deyildi. Almaniyadan, İngiltərədən Azərbaycan deyib gələnlər var idi.**



### "ÇİMƏRLİKLƏRİNİZ TƏMİZDİR?"

Qoşa qala qapısından İçərişəhərə daxil olduqda ilk olaraq Birləşmiş Ərəb Əmirliklərindən olan 10-12 nəfərlik qrupla rastlaşırıq. Qadınlardan ibarət qrupda yalnız bir kişi var. Zərif cinsin nümayəndələri şəhərimizi, insanlarımızı bəyəndiklərini desələr də, şəkil çəkməyə icazə vermədilər. Dedilər ki, yalnız qrupdakı cavan oğlanın şəklini çəkə bilərik. Müsahibimiz Self Əl Şəmsi şəhərimizin bu qədər gözəl olduğunu ağlına belə gətirmirmiş. Deyir ki, şəhərimiz tarixi məkanları ilə çox fərqli, insanları çox mehribandır: "Gəzməli-görməli yerləriniz çoxdur. 6 gündür buradayıq, iki günə vətənimizə qayıdacağıq".

Həyat yoldaşı ilə turist kimi ölkəmizə gələn Rusiyanın Tula şəhərindən olan Yuri Aleksandroviç Bakının mərkəzindəki arxitekturanın çox yüksək səviyyədə qorunub saxlandığını bəyənib: "İçərişəhərdəki qədim tikililər məni heyran etdi. Restoranlarda, hoteldə xidmət səviyyəsi də çox gözəldir. İnsanlarınız mehriban, kömək etməyə meyillidirlər. Nə isə soruşanda böyük məmnuniyyətlə cavab verir, hətta haranısa xəbər alanda az qala bizi həmin ünvana qədər aparırlar. Qonaqlara bu cür hörmət etməyiniz çox xoşumuza gəlir".

Ölkəmizi çox bəyəndiklərini deyən cütlük yayda buraya bir daha gəlməyi planlaşdırır. Buna görə çimərlik mövsümü, çimərliklərimizin təmizliyi, yayda dənizdə temperaturun neçə dərəcə olması ilə maraqlandılar. Çimərliklərimizin təmiz olmadığını deməyə dilimiz gəlməsə də, üstüörtülü şəkildə başa saldıq ki, Bakı kəndləri tərəfə getsinlər.

### "İSTƏRDİM Kİ, İSTANBULA GEDƏN İRAN TURİSTLƏRİNİN HAMISI BURA GƏLSİN"

İrandan olan farsdilli müsahibimiz Kamran Kamranini onu şəhərlə tanış edən tərcüməçisi vasitəsilə danışdırırıq. Şəkil çəkməyimizə icazə verməsə də, Azərbaycanla İran arasındakı dostluqdan ağızdolusu danışdı: "Bizi qəbul etdiklərinə görə hər bir azərbaycanlıya təşəkkürümü bildirirəm. Son dəfə 20 il əvvəl Azərbaycanda olmuşdum. Amma bu dəfə gələndə tamam dəyişilmiş Bakı ilə qarşılaşdım. Şəhəriniz çox gözəlləşib. Azərbaycanlıları elə özümüz kimi bilirik. Xüsusilə mehribanlıqda və qonaqpərvərlikdə bir-birimizə çox oxşayırıq. Qədim dövrdən İranla Azərbaycan bir-biri ilə dost ölkələr olub. Ümidvaram ki, bundan sonra münasibətlərimiz daha da istiləşəcək, bütün sahələrdə, xüsusən də turizm sahəsində əməkdaşlıq edəcəyik. İstərdim ki, turizm sahəsində əməkdaşlığımız o qədər inkişaf etsin ki, İstanbula gedən İran turistlərinin hamısı bura gəlsin".

### AVROPALILAR DA İÇƏRİŞƏHƏRDƏN ZÖVQ ALIR

İngiltərədən - Londondan olan müsahibimiz Tim Btelia Bakı ilə yanaşı, Lənkəran və Lerikdə də olub. Dostuyla ölkəmizə təşrif buyuran Tim təbiətimizin fantastik olduğunu düşünür. İlk dəfədir Bakıda olan ingiltərəli qonaq insanlarımızı da, şəhərimizi də bəyənib.

Almaniyalı müsahibimiz Kliments Kolic də dostuyla gəlib. Mağazada Azərbaycanın milli papaqlarını başlarına qoyaraq bir-birlərinin şəkillərini çəkən almanlar iki gün Bakıda qalıb Moskvaya gedəcəklər. Yollarını Azərbaycandan saldıqlarına çox sevinirlər: "Şəhəriniz çox gözəldir, gəzməli yerləriniz çoxdur. Hava ilə əlaqədar indi dənizdə çimə bilməsək də, gözəl çimərliklərinizin olduğunu gördük. Şəhərinizdə qədim arxitektura ilə modern arxitektura vəhdət yaradıb".

Qala divarlarının yanında selfi çəkdirən əcnəbilərə yaxınlaşırıq. Hindistan vətəndaşı Abul Şayk yeni evləndiyi xanımına İçərişəhəri tanıtdırırdı. Müsahibimiz ən çox həmvətənlərimizin əcnəbilərlə davranışından zövq alıb: "Xüsusilə bizim Hindistandan olduğumuzu biləndə gülər üzlə qarşılayırlar".

### "İNSANLARINIZ ÇOX ƏSƏBİDİR"

İran azərbaycanlısı olan Hümeyra xanım həyat yoldaşı və oğlu ilə birlikdə Ərdəbil şəhərindən gəlib. Mart ayında bura gəlməsinin səbəbi Novruz bayramını Azərbaycanda keçirmək istəyir. Deyir ki, ötən illər Novruz bayramında Azərbaycana gələn tanışları məsləhət görüb ki, martda gəlsin: "Çünki Novruzda Bakıda çox gözəl tədbirlər düzənlənir".

Hümeyra xanım 12 il bundan əvvəl Azərbaycanda olub və Bakının çox dəyişdiyi fikrindədir. O, hər şeyin çox gözəl olduğunu desə də, insanlarımızın əsəbi olmasından şikayətləndi: "8 gündür buradayıq, insanlarınızın çox əsəbi olduğunu müşahidə edirəm. Siz də bizdənsiniz. İstəyərik ki, hər il bura gələk, amma satıcıların əsəbi, aqressiv cavabları bizi buradan qaçırır.







Heç nə soruşa bilmirik, nə isə almaq istəyəndə gərək əvvəl qiymətini biləsən. Çox şey soruşanda əsəbiləşirlər. Buna görə qorxumuzdan bir şey soruşa bilmirik. Əgər turizmin inkişaf etməsini istəyirsinizsə, sizin satıcılar birinci növbədə turistlərlə yaxşı davranmağı öyrənməlidir. Onların hərəkətləri turistləri qaçırmamalıdır. Satıcılar necə əsəbidirlərsə, artıq küçədə də kimdənsə nə isə soruşmağa çəkinirik".

Hümeyra xanımın sözlərinə qüvvət, biz də İçərişəhərdə satışla məşğul olanların kobudluğu ilə rastlaşdıq. Daha doğrusu, xüsusi bir söz deməsələr də, üzlərində "bir kiloqram" zəhrimarla müsahibədən imtina etmələri təbii ki, xoş deyildi. Hələ bu "xoş üzü" ilk dəfə Azərbaycanla tanış olan əcnəbiyə göstərmək heç xoş deyil. Bizim satıcılar təəssüflər olsun ki, marketinqin inkişaf etdiyi müasir dünyada hələ də başa düşmək istəmirlər ki, onlara PR lazımdır, onlar xoş üzlə müştəri cəlb edə bilərlər və onlar məhz müştəridən asılıdırlar...

### AZƏRBAYCAN SUVENİRLƏRİNİ ÇİNDƏN ALIRIQ

Amma obyektlərdə satış həyata keçirənlərdən fərqli olaraq, stol qoyub Azərbaycanın milliliyini özündə ehtiva edən papaq, araxçın, suvenir, zinət əşyaları və s. satanlar arasında suallarımızı cavablandıran tapıldı. Məhz belələrinin sayəsində Bakıya bir dəfə gələn turist ikinci dəfə də gəlmək istəyir.

Kamran bu mövsümdəki satışlarından razıdır. Deyir ki, əvvəlki illərə nisbətdə bu il alverləri daha yaxşı olub. Hətta 3 il idi sata bilmədiyi malı 2 gün əvvəl İrandan gələn turist alıb. Milli suvenirləri haradan aldıqlarına gəlincə, müsahibimizin cavabı bizi təəccübləndirdi: "Yerli istehsal çox baha başa gəlir. Buna görə Azərbaycanın milli adət-ənənələrini, milli geyimlərini, tarixi yerlərini əks etdirən suveniri nümunə kimi Çinə yollayırıq. Məsələn, stikerləri götürək. Azərbaycanda istehsal olunsa, birinin qiyməti bəlkə də 4-5 manata başa gələcək. Amma Çindən kilo ilə aldığımıza görə ucuz başa gəlir və turistə 1 manata rahatlıqla sata bilirik. Çünki hər gələn turistin imkanı yaxşı olmur və hər bir turist Azərbaycanla bağlı nəsə xatirə almaq istəyir. Ucuz bir şey tapmayanda da əliboş qayıtmalı olur".

### İNGİLİSDİLLİ SATICI

Satıcılardan birinin ingilis dilində turistləri çağırması diqqətimizi çəkdi. Adının çəkilməsini istəməyən satıcı ingilis dilini qohumlarından öyrənib: "Əslində ingilis dilini bilmirəm, sadəcə, mənə lazım olan sözləri bu dili bilən qohumumuzdan öyrənib əzbərləmişəm. Buna görə də əcnəbilərlə rahat dil tapa bilirəm. Bilmədiyim söz olanda da bir-birimizi birtəhər başa salırıq".

Müsahibimiz əcnəbilərin əsasən suvenir və araxçın aldıqlarını deyir. Hansı turistlərin daha çox bazarlıq etdiyinə gəlincə, Səudiyyə Ərəbistanından gələn qonaqlardan xüsusi razılıq edir: "Son vaxtlar Bakıya Səudiyyə Ərəbistanından xeyli axın var".